# AZƏRBAYCAN DÜNYAYA MİLLİ BİRLİK, VƏHDƏTLİLİK NÜMUNƏSİDİR

***Dövlət başçısı tərəfindən bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunmuşdur. Müasir dünyamızda müxtəlif regionlarda milli-dini zəmində çarpışmaların, müharibələrin və toqquşmaların şahidiyik. Lakin Azərbaycan sabitlik adasına bənzəyir. Ölkəmizdə müxtəlif etnik köklərə, dinlərə malik insanlar əsrlər boyu sülh, əmin-amanlıq şəraitində birgə yaşamışlar. Bu həyat tərzi xalqımızın tarixən qəbul etdiyi və mənəvi dəyərinə çevirdiyi xarakterik xüsusiyyətdir.***

Ölkəmizdə milli birliyin əsasında duran amillərdən biri də məhz bu bəşəri dəyər–multikulturalizmdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra multikulturalizm dövlət siyasətində prioritetdir. Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forumdakı çıxışında ölkəmizdəki mövcud multikulturalizm barədə deyib: "Fərəhlənirik ki, müstəqillik illərində bu müsbət meyil daha da güclənmişdir. Multikulturalizm və dini dözümlülük Azərbaycanda dövlət siyasətidir. Eyni zamanda, bu, cəmiyyətdə olan əhval-ruhiyyənin təcəssümüdür. Bu isə çox vacibdir ki, həmin sahədə dövlət siyasəti və ümumi ab-hava bir-birindən fərqlənmir".

Müxtəlif mədəniyyətləri bir araya gətirmək, birgəyaşayışa töhfə vermək, qarşıdurmanı önləmək, bu gün dünyada milli-dini zəmində baş verən kataklizmlərə son qoymaq üçün Azərbaycan 2008-ci ildə "Bakı prosesi"nə start verdi və dünyada ilk dəfə İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv olan dövlətlərin mədəniyyət nazirlərinin Bakıda toplantısını keçirdi. Müasir gərgin beynəlxalq şəraitdə "Bakı prosesi" artıq bir reallıqdır, milli-dini dözümlülüyə, tolerantlığa, multikulturalizmə bir töhfədir. Azərbaycan multikulturalizm dəyərlərini təşviq edən, bu dəyərin sülhə, sabitliyə, sosial-iqtisadi inkişafa, əməkdaşlığa, mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə çox əhəmiyyətli stimul verdiyini göstərən çoxsaylı beynəlxalq tədbirlər keçirir. Ölkəmiz Dünya dini liderlərinin zirvə görüşünün, bir neçə dəfə Mədəniyyətlərarası Dialoq Forumu və Beynəlxalq Humanitar Forumun təşkilatçısıdır. Ölkəmizdə təqribən bir aydan sonra BMT-nin təşkilatçılığı ilə Sivilizasiyalar Alyansının 7-ci toplantısı keçiriləcəkdir.

Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədər zəngindir və qədim tarixə malikdir. Klassiklərimizin əsərlərində, dastanlarımızda və s. kifayət qədər multikulturalizm dəyərlərinə dair misallar tapmaq olar. Azərbaycanda katolik kilsəsi, pravoslav kilsəsi, yəhudi sinaqoqu, məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında tolerantlıq şəraitində fəaliyyət göstərir. Təbii ki, bu mühiti dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış normalarını həyat tərzinə çevirməsi yaradıb.

Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multukulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Hazırda ölkəmizin təcrübəsi tədqiqat obyektidir, bir çox ölkələrdə öyrənilir və tədris edilir. Bu istiqamətdə əməkdaşlığa maraq artır və ilbəil ələqələr genişlənir. Bir sıra ölkələrdə multikulturalizmin gələcəyinin olmadığı barədə müxtəlif rəylər eşidirik. Lakin Azərbaycan xalqı birgəyaşayış təcrübəsi və həyat tərzi ilə sübut edir ki, multikulturalizm yaşayır, onun gələcəyi də vardır. Sadəcə, onu qəbul etmək, siyasi prioritet vermək, təbliğatçısı və təşviqatçısı olmaq lazımdır. Dövlət başçısı multikulturalizmin yaşadığını, onun gələcəyinin olması və bu istiqamətdə birgə fəaliyyət, təşviqat və təbliğatın vacib olduğu barədə deyib: "Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə, siyasətçilər, ictimai rəyə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük. Bu yanaşma yalnız təcridolunmaya gətirir. Biz buna imkan verə bilmərik. Çünki qeyd etdiyim kimi, biz bir-birimizlə bağlıyıq və eyni planetdə yaşayırıq. Artıq şahid olduğumuz kimi, Avropa ilə Yaxın Şərq arasındakı məsafə o qədər də böyük deyil. Yəni məsafə insanların sığınacaq tapmaq və öz ailələrini xilas etmək naminə oralara üz tutmağın qarşısını almır. Odur ki, multikulturalizmin müsbət nümunələri üzərində dayanmaqla, bu dəyərlərin təşviqi hamımıza yardımçı olar. Çünki gələcəkdə heç bir ölkə və millət təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Biz bir-birimizə bağlıyıq. Dünya ölkələrinin mütləq əksəriyyətinin əhalisi çoxmillətli və çoxdinlidir. Biz bununla fəxr etməliyik". Ölkə rəhbərinin siyasətçilərə və xüsusən media nümayəndələrinə işarə etməsi təsadüfi deyildir. Multikulturalizmin gələcəyinin olmadığı barədə müxtəlif rəylər məhz demokratiyadan bəhs edən ölkələrin siyasətçilərindən eşidilib və həmin ölkələrin KİV-dəki materiallarında ayrıseçkilik, dini-milli dözümsüzlüyə, islamafobiyaya yol açan, qaçqınlarla, miqrantlarla bağlı neqativ və s. qızışdırıcı materiallar yer alır. Beləliklə, ictimai rəyi yaratmaq, formalaşdırmaq sahəsində onların üzərinə daha böyük məsuliyyət düşür. Bu cür yanaşma xalqları, dövlətləri yalnız təcridolunma vəziyyətinə çatdırır. Beləliklə, sabitliyin, birgəyaşayışın, sosial-iqtisadi inkişafın qarşısına çox böyük təhlükə çıxmış olur.

XXI əsrin əvvəlindən başlayaraq iqtisadi və siyasi ehkamlar bir sıra təhdidlərə məruz qaldı. Bu vaxta qədər öz nüfuzunun zirvəsinə çatmış, demək olar ki, sərhədsiz olan Qərbin siyasi və iqtisadi baxışları özünün son həddinə çatdı. SSRİ-nin süqutundan sonra üstünlüyünü göstərəcək arena qalmadı. Liberal iqtisadiyyata keçən Çin sosial-iqtisadi inkişafı günün reallığı oldu. Asiyada innovativ inkişafın sürəti dünya bazarlarında rəqabətin gərginliyini artırdı, digər tərəfdən, inkişaf edən Asiya regionları ilə Avropa və Yaxın Şərqə səmərəli qısa tranzit yolu açmaq günün məsələsi oldu. Belə bir vəziyyətdə bəziləri ictimai rəyi çaşdırmaq üçün tarixin sonunun gəlməsi, digərləri isə yeni birqütblü dünya barədə danışmağa başladı. Lakin XXI əsrin ilk onilliyi ərzində tarixi proseslər başqa gedişatı göstərdi. 2008-ci ildə Qərbin stabil və möhtəşəm görünən maliyyə bazarları çökməyə başladı, daha sonra Avropa İttifaqına bir sıra üzv ölkələrin, əsasən də Yunanıstanın borcu ilə bağlı avroməkanda böhran yarandı. Bu vəziyyət onu göstərdi ki, mövcud qlobal bazarların fəaliyyəti effektliyini itirib və kifayət qədər nöqsanlara malikdir. Azad bazar rəqabət meydanı, xidmət sahəsidir, hər hansı bir dövlətin, cəmiyyətin iradəsinə tabe deyil. Avropada başlayan və dünya iqtisadiyyatına güclü təsir edən ekoloji problemlərin durmadan artmasını da bura əlavə etsək, beynəlxalq gərginliyin nə qədər ağır olduğunu və mürəkkəb çağırışların bütün dünya ölkələrini əhatə etdiyini aydın görəcəyik. Ümidvericidir ki, ötən ilin sonlarında BMT-də yeni davamlı inkişaf məqsədləri qəbul edilib. Parisdə iqlim dəyişikliyi ilə bağlı razılaşma imzalanıb. Birqütblü perspektivin özünü doğrultmadığı ortadadır, nəticədə çoxqütblü perspektivləri müəyyənləşdirən inkişaf etmiş ölkələrin G7 və ya G8, daha sonra G20 formulu yarandı. Bu qlobal iqtisadi-siyasi prosesləri artan terrorizm də müşayiət edir. Nyu-Yorkda 11 sentyabr terroru qlobal terrorizmin vüsət almasını sübut etdi və beynəlxalq birliyə, hökumətlərə yeni çağırış yaratdı. "Ərəb baharı" inqilablarının iflası ilə terrorizmin daha konkret və geniş, daha qanlı, qəddar mərhələsi başladı. Yaxın Şərq və Şimali Afrikada bu çarpışmada iflasa uğramış dövlətlərin meydana gəlməsinin, vətəndaş müharibələrinin şahidi olduq. Suriya, İraq, Yəmən, Somali, Sudan, Liviya, Sinay və Afrika səhrası, habelə digər yerlərdə ağlasığmaz qeyri-insani qəddarlıqlar, qırğınlar, vəhşiliklər, dəhşətlər törədildi, müharibələr, toqquşmalar, qarşıdurmalar sengimədi. Terrorçular "İslam uğrunda mübarizə" pərdəsi altında fəaliyyət göstərdiklərinə görə həm əhalisinin əksəriyyəti müsəlman olan ölkələrdə, həm də Qərbdə Qərb və müsəlman icmaları arasında uçurum yaranır və bu vəziyyət getdikcə daha da gərginləşir. Buna görə də məsələlər təkcə siyasi, iqtisadi, hərbi xarakter, mahiyyət kəsb etmir, fərdlərin, toplumların, xalqların, cəmiyyətin mədəni, sosial, dini kimliyini özündə ehtiva edən, əsrlərdən miras qalmış bir çox paradiqmaların yenidən nəzərdən keçirilməsinə səhnə olan, ümumi bəşəriyyətimiz üçün ciddi problemlər yaradan prosesə dönüb. Dövlət başçısı Azərbaycanın dünyada hər bir fərdin, cəmiyyətin, toplumun dinindən, irqindən, milliyyətindən asılı olmayaraq azad yaşamaq, fəaliyyət göstərmək, öz iradəsini sərbəst ifadə etmək hüququnun və bu şəraitin beynəlxalq miqyasda bərqərar olmasına çalışdığını, ölkəmizin bu istiqamətdə nümunə olduğunu vurğulayıb: "Ötən ay biz müsəlman dünyasının ən müqəddəs məkanlarından olan İmamzadə Dini-Tarixi Kompleksinin yenidənqurma və bərpadan sonra açılışında iştirak etdik... Orada mənimlə yanaşı çıxış edənlərin arasında Azərbaycanın müxtəlif dini icmalarının rəhbərləri olmuşlar - Azərbaycan müsəlmanlarının, Azərbaycanın Rus Pravoslav kilsəsinin, yəhudi icmasının və Azərbaycanın Katolik kilsəsinin rəhbərləri. Onlar bu tədbirdə yalnız iştirak etməmiş, həm çıxış etmiş və həm də yeni inşa edilmiş məscidi ziyarət etmişlər... Bu, bizim cəmiyyətimizə, xalqımıza və dünyaya olan mesajımızdır.

Bir neçə ay bundan öncə Azərbaycanın ən böyük məscidində sünni və şiə müsəlmanlar bir yerdə namaz qılmışlar və bunu vəhdət namazı adlandırmışlar. Bu da bir daha real vəziyyəti əks etdirir. Burada nə müsəlman icması daxilində, nə də, ümumiyyətlə, cəmiyyətimizdə fərq qoyulmur. Bu, Azərbaycan reallığıdır, bizim ən böyük sərvətlərimizdəndir və uğurlu inkişafımızın zəmanətidir. Çünki bu konsensus, bu birlik olmadan biz uğur əldə edə bilmərik. Biz daha da böyük nailiyyətlər əldə etməkdə, ölkəmizi müasirləşdirməkdə davam etmək istəyirik. Biz buna yalnız dostluq və multikulturalizm kimi birgə dəyərlərə əsaslanaraq nail ola bilərik. Ötən il Azərbaycan ilk Avropa Oyunlarına, 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinə ev sahibliyi etmişdir. Bakı İslam Mədəniyyəti Paytaxtı elan edilmişdir və gələn il biz İslam Həmrəylik Oyunlarını təşkil edəcəyik. Azərbaycan Avropa Şurasının və eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu, mədəniyyətlər, ənənələr, dinlər arasında körpüdür və bu, bizim məsuliyyətimizdir. Biz bu rolu ilk öncə öz ölkəmizin uğurlu gələcəyi və regionda sabit proqnozlaşdırıla bilən vəziyyətin yaradılması naminə oynayırıq".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**